Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 47 (8070) ÇƏRŞƏNBƏ, 27 fevral 2019-cu il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az





# Öndə Ali Baş Komandan idi

**Xalq paytaxtın baş meydanındadır...**

**Üzündə 27 ilin hüznü, qəlbində acı yanğı ilə alışıb-yanan 70 min insan...**

**Bir gecədə amansızcasına qətlə yetirilən 613 əliyalın və günahsız insanın - 109 qız-gəlinin, 63 körpənin, 70 qocanın və bütün şəhidlərimizin ruhu da bizimlədir...**

**"Hamı Xocalıya ədalət!" üçün burdadır...**

**"Azadlıq" meydanından başlayır ümumxalq yürüşü…**

**Ali Baş Komandan addımlayır, bu möhtəşəm izdihamın önündə...**

**Səssiz insan seli axır İlham Əliyevin arxasınca...**

**Bu sükutun icində əslində, "Dünya, Xocalını Tanı!" hayqırtısı var...**

**Bu lal sükut dünyaya ədalət çağırışıdır...**

**Bu səssizlik ruhların harayıdır...**

Dünən dünya bir daha Azərbaycan dövlətinin, xalqının qətiyyətli mövqeyinə şahidlik etdi. Dünya ictimaiyyətinə bəlli oldu ki, öz Prezidentinin ətrafında sıx birləşən xalq hər zaman şəhidlərinin xatirəsini əziz tutur, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün birgə mübarizəyə hazırdı.

Bu yürüş bir daha xalqın ədalətsiz dünyaya 27 il öncə baş verən Xocalı dəhşətlərini unutmadığının, yaddaşlardan silmədiyinin nümayişi idi.

Ali Baş Komandanın iştirakı ilə paytaxtda 3-cü dəfə (əvvəlkilər 2012 və 2017-ci illərdə olmuşdu) keçirilən ümumxalq yürüşü Azərbaycan dövlətinin Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsi idi.

Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 27 il", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalı, sözün bitdiyi yer" və s. çağırışlar və şüarlar dünyaya Xocalı qırğını haqqında əsl həqiqəti çatdırırdı.

70 min insanın iştirak etdiyi bu yürüş işğalçı Ermənistana və onun havadarlarına növbəti mesaj idi - xalq işğalla barışmır, barışmayacaq da... Xocalı soyqırımı beynəlxalq hüqiqi qiymətini almayınca bu mübarizə durmayacaq.

Prezident İlham Əliyevin ardınca addımlayan xalq bu yürüşlə bir daha bəyan etdi ki, soyqırımı qurbanlarının qanı yerdə qalmayacaq, erməni vəhşiliyi daim hər zaman dünyaya çatdırılacaq, Ermənistanın təcavüzkar siyasəti ifşa ediləcək.

Analoqu olmayan və amansızlığı ilə fərqlənən Xocalı soyqırımı erməni millətçilərinin təcavüzkar siyasətinin ən qanlı səhifələrindən biridir. 27 il öncə Xocalıda baş verən hadisələr yeganə bir məqsədlə törədilib - dinc sakinləri milli mənsubiyyət əlamətinə görə məhv etmək. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır.

Dünən bütün gün ərzində Xocalı soyqırımı qurbanlarının abidəsi önünə insan axını davam etdi. On minlərlə insan soyqırımı abidəsini ziyarət edərək önünə tər çiçəklər düzüb şəhidlərin ruhuna dualar oxudular.

Ümumxalq yürüşü həm də qürurverici bir təəssürat yaratdı. Ali Baş Komandanına güvənən xalq dünyaya nümayiş etdirdi ki, Baş Sərkərdəsinin arxasınca Qarabağa da belə yürüş etməyə hazırdır. Lələtəpə və Günnüt zəfərləri, Azərbaycan Prezidentinin həm ordu quruculuğu, həm də Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində atdığı qətiyyətli addımlar xalqın qələbəyə inam hissini daha da gücləndirib.

İlham Əliyevin torpaqlarımızın işğaldan azad olunması üçün hər addımda qətiyyət nümayiş etdirməsi, erməni vəhşiliklərinin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətindəki həssaslığı ölkə vətəndaşlarını qürurlandırır, cəmiyyətdə, gənclərdə vətənpərvərlik əhval-ruhiyyəsini yüksəldir. Məhz İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsi olaraq Xocalı soyqırımını tanıyan dövlətlərin sayı ilbəil artır. Bu gün dünyanın 13 ölkəsi və ABŞ-ın 22 ştatı parlament səviyyəsində, beynəlxalq qurumlarda isə İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyır. Bundan başqa, Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib. Bununla yanaşı, Ermənistanın işğalçı dövlət olması faktı BMT Təhlükəsizik Şurasının, BMT Baş Assambleyasının, ATƏT-in 1996-cı il Lissabon Sammitinin, AŞ PA-nın, Avropa Parlamentinin, Avropa İttifaqının "Şərq tərəfdaşlığı" Sammitinin, Qoşulmama Hərəkatı dövlət və hökumət başçılarının sammitlərinin bəyannamələrində, qəbul edilən qətnamələrdə öz əksini tapıb.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu istiqamətdə gördüyü işlər, Heydər Əliyev Fondu tərəfindən sistemli və məqsədyönlü şəkildə aparılan "Xocalıya ədalət!" kampaniyası artıq real nəticələr verir. Bütün bunlar bir daha təsdiqləyir ki, bu cinayəti törədənlər gec-tez ədalət məhkəməsi qarşısında cavab verərək layiqli cəzalarını alacaq, şəhidlərimizin qanı yerdə qalmayacaq.

Belə güclü yəqinliyi şərtləndirən ən böyük amillər - xalqın vətənpərvərliyi, döyüşkən ruhu, torpağa məhəbbəti, həmçinin dövlət başçısının qətiyyətli mövqeyidir. Faciənin 27-ci ildönümündə keçirilən ümumxalq yürüşündə nümayiş etdirilən həmrəylik də məhz bu amildən qaynaqlanırdı.

Xalq məhz Ilham Əliyevin ardınca yürüyürdü...

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## İlham ƏLİYEV:

## "Xocalı faciəsi xalqımızın sağalmaz dərdidir, soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir"

**Fevralın 26-da Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Bakıda keçirilən ümumxalq yürüşündə iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalının müxbirinə müsahibə verib.**

***Müxbir:*** *Azərbaycan xalqının dərdinə şərikik. Həlak olanların ailələrinə, doğmalarına başsağlığı veririk. Bu gün Siz insanlara, Azərbaycan sakinlərinə, bu dərdi bölüşənlərə hansı sözlərlə müraciət edirsiniz?*

**Prezident İlham Əliyev:** Çox sağ olun ki, gəlmisiniz. Azərbaycan xalqının tarixindəki bu faciəli hadisəyə münasibətinizi bildirirsiniz. Bu, xalqımızın sağalmaz dərdidir, xalqımıza qarşı törədilən soyqırımıdır, ötən əsrin ən böyük cinayətidir. Yalnız Azərbaycan millətinə mənsub olduqlarına görə günahsız insanlar - qocalar, qadınlar və uşaqlar həlak olmuş, zərər çəkmişlər. Azərbaycan xalqı heç vaxt bu faciəni unutmayacaq, həmişə xatırlayacaq. Bu, bizim yaddaşımızda həmişəlik qalacaq. Əsas odur ki, belə faciələr daha heç vaxt təkrar olunmasın. Daha heç vaxt heç bir xalqa qarşı belə dəhşətli soyqırımı hadisəsi, milli əlamətə görə qırğın törədilməsin. Azərbaycan dövləti, xalqı həlak olanların xatirəsini əziz tutur, yad edir və onların xatirəsi bizim üçün müqəddəsdir. Həmin faciəli gecədə xilas olanlar həmişə bizim üçün fiziki zədələr, mənəvi yaralar alan, həmin qətliamı yaşayan insanlar kimi qalacaqlar. Biz bu adamların aqibətini yüngülləşdirmək üçün əlimizdən gələni edirik, dövlət onlara kömək edir və edəcək. Bir daha demək istəyirəm, biz hamımız çalışmalıyıq ki, belə faciələr bəşəriyyət tarixində bir daha olmasın.



## Prezident qayğısının növbəti təzahürü

**Son bir ayda Prezident İlham Əliyevin sosial məsələlərlə bağlı imzaladığı bir sıra sərəncamlar cəmiyyətdə böyük məmnunluq yaratdı.**

Bir daha təsdiq olundu ki, əhalinin sosial rifahının gücləndirilməsi ölkədə həyata keçirilən siyasətin əsas istiqamətlərindən biridir. Bu müddətdə Prezidentin imzaladığı sənədlər həm də onu göstərdi ki, islahatlar kompleks xarakter daşıyır və atılan hər bir addımın mərkəzində Azərbaycan vətəndaşının etibarlı sosial təminatı dayanır.

### 2019-cu il fərqli olacaq

İki gün əvvəl Prezidentin yanında keçirilən müşavirə də iqtisadi və sosial məsələlərə həsr olunmuşdu. Bu müşavirə ilk növbədə, İlham Əliyevin öz vətəndaşının sosial rifahının daha da yaxşılaşdırılmasına olan həssas diqqətinin növbəti təcəssümü kimi yadda qaldı. Eyni zamanda, bir daha təsdiqləndi ki, dövlətin sosial siyasəti ardıcıl və sistemlidir. Reallıq ondan ibarətdir ki, Azərbaycanda son illərdə aparılan mükəmməl iqtisadi islahatlar, şəffaflaşdırma siyasəti büdcə gəlirlərinin artmasına, maliyyə imkanlarının əhəmiyyətli dərəcədə yüksəlməsinə səbəb olub. Və cənab Prezident ilk növbədə bu vəsaitləri məhz sosial sferaya yönəldir.

Müşavirədə bu barədə danışan dövlət başçısı vətəndaşların sosial rifahının yaxşılaşdırılmasının ən başlıca vəzifə olduğunu bəyan etdi: "Biz əlavə gəlirləri, ilk növbədə, vətəndaşların sosial müdafiəsinə yönəltməliyik. Çünki bu, bizim üçün prioritet məsələdir, vətəndaşların sosial rifahının yaxşılaşdırılması ən başlıca vəzifəmizdir. Bu istiqamətdə artıq bir çox ciddi addımlar atılıb və atılacaq. Ümumiyyətlə, bildirmək istəyirəm ki, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaqdır".

*Ardı 6-cı səh.*



# XOCALIYA ƏDALƏT!

## Azərbaycan xalqı soyqırımı qurbanlarının xatirəsini ümummilli yürüşlə andı
















Bəşər tarixində ən qanlı cinayətlərdən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar fevralın 26-da Bakıda ümumxalq yürüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri yürüşdə iştirak ediblər.

Paytaxtın Azadlıq meydanından Xətai rayonunda ucaldılmış abidəyə doğru hərəkətə başlayan və on minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşünün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır.

Ön sırada Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları ümumxalq yürüşünün iştirakçıları qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkilləri, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar və soyqırımı qurbanlarının adlarının, soyadlarının əks olunduğu Azərbaycan, rus, ingilis dillərində plakatlar və transparantlar tutmuşdular. Marşrut boyunca yolların kənarlarındakı monitorlarda, binaların fasadlarında və eyvanlarında "Dünya Xocalı soyqırımını tanımalıdır!", "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!", "Xocalı - XX əsrin soyqırımı", "Cinayətkarlar cəzasız qalmayacaqlar!", "Xocalı soyqırımı - 27 il", "Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir", "Xocalı, sözün bitdiyi yer", "Viran edilən Xocalı yenidən dirçələcək" və s. şüarlar nümayiş etdirilirdi.

Ümumxalq yürüşü iştirakçılarının hüznlü çöhrələrinə baxanda görünürdü ki, ötən 27 il Xocalının dinc sakinlərinə qanlı divan tutulmasının dəhşətlərini yaddaşlardan silə bilməyib. Bircə gecədə yerlə-yeksan edilmiş bu Azərbaycan şəhərinin adı indi Xatın, Liditse və Sonqmi ilə qoşa çəkilir.

Bütövlükdə bu ümumxalq yürüşü Azərbaycanın Xocalı soyqırımı ilə bağlı apardığı genişmiqyaslı işin növbəti mərhələsidir. Dünya Xocalı qırğını haqqında əsl həqiqəti bilməli, başa düşməlidir ki, XX əsrin sonunda bütün sivil bəşəriyyətin gözü qarşısında törədilmiş bu vəhşiliyə laqeydlik, yüzlərlə dinc insanın ölümündə təqsirkar olanların cəzalandırılmaması belə faciələrin planetin hər bir nöqtəsində təkrarlanmasına gətirib çıxara bilər. Bu yürüş həm də Azərbaycan xalqının sıx birliyini, onun öz şəhidlərinin xatirəsinə ehtiramını, işğal altındakı torpaqların azad olunması və ölkəmizin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini nümayiş etdirdi.

❖ ❖ ❖

Xocalı soyqırımı qurbanlarının abidəsinin ətrafında fəxri qarovul dəstəsi və tər çiçəklər düzülmüşdü.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoydu, faciə qurbanlarının xatirəsini ehtiramla yad etdi.

Birinci vitse-prezident xanım Mehriban Əliyeva, Baş nazir Novruz Məmmədov, Milli Məclisin Sədri Oqtay Əsədov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, Arzu Əliyeva abidənin önünə tər güllər qoydular.

Dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, habelə qırğından xilas ola bilmiş Xocalı sakinləri də abidənin önünə güllər düzdülər.

❖ ❖ ❖

Ümumxalq yürüşündə Rusiyadan gələn nümayəndə heyəti də iştirak edirdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rusiyadan gələn nümayəndə heyəti ilə görüşüb söhbət etdilər.

Heyətə Rusiya Federasiyası Dövlət Dumasının Beynəlxalq əlaqələr üzrə komitəsinin sədr müavini, dünya şöhrətli idmançı İrina Rodnina, Dövlət Dumasının Təhlükəsizlik və korrupsiya əleyhinə komitəsi sədrinin birinci müavini Dmitri Savelyev, Dövlət Duması Federal Məclisinin Ailə, Qadın və uşaq məsələləri üzrə komitəsinin sədr müavini Oksana Puşkina, Dövlət Dumasının Dövlət əhəmiyyətli tikinti və qanunvericilik üzrə komitəsi sədrinin birinci müavini Mixail Yemelyanov, Dövlət Dumasının deputatları Tatyana Sibizova, Denis Parfenov və Aleksey Juravlev, Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Azərbaycanın dostları qrupunun əlaqələndiricisi, tanınmış politoloq Sergey Markov və həmin institutun MDB ölkələri departamentinin rəhbəri Aleksey Bıçkov, hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko, rusiyalı yazıçı, rejissor Aleksandr Rusnak, Rusiya Hökuməti yanında Maliyyə Universitetinin sosiologiya və politologiya fakültəsinin dekanı Aleksandr Şatilov daxildir.

Sonra Prezident İlham Əliyev Rusiyanın "Rossiya-24" kanalına müsahibə verdi.

# İlham Əliyev R.T.Ərdoğanı təbrik edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.

Dövlətimizin başçısı Prezident Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyənin inkişafı naminə ona yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Türkiyə Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə təşəkkür edib.

Eyni zamanda Prezident Rəcəb Tayyib Ərdoğan Xocalı soyqırımı zamanı ermənilərin günahsız insanların qətlə yetirilməsini bir daha pisləyərək, bu faciə ilə bağlı Azərbaycan Prezidentinə və xalqımıza başsağlığı verib.

Dövlətimizin başçısı başsağlığına görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə və möhkəmlənəcəyinə əminliklərini ifadə ediblər.

***Prezidentin Mətbuat Xidmətinin məlumatı***

## Bakı Şəhər İcra Hakimiyyətinin məlumatı

# Xalqla hakimiyyətin birliyinin, xalqın öz rəhbərinə dəstəyinin nümayişinə çevrilən yürüş

Fevralın 26-da Bakı şəhərində Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Xətai rayonundakı soyqırımı qurbanları abidəsinə ümumxalq yürüşü keçirilib. Əlli beş mindən çox insanın iştirak etdiyi, ön sırasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın olduqları yürüş zamanı "Xocalıya ədalət!", "Xocalını unutmayın!", "Rədd olsun erməni faşizmi!" və digər çoxsaylı şüarlar nümayiş etdirilib.

Bu yürüş xalqla hakimiyyətin birliyini, vəhdətini və xalqın öz rəhbərinə verdiyi böyük dəstəyi bir daha göstərdi. Yürüşdə iştirak edən böyük insan kütləsi Xocalı soyqırımının heç zaman unudulmayacağını və bu qanlı cinayəti törədənlərin Azərbaycan Prezidentinin apardığı siyasət, gördüyü işlər nəticəsində cəzasız qalmayacaqlarına xalqımızın inamını nümayiş etdirdi.

# Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı İstanbulda izdihamlı yürüş keçirilib

XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı fevralın 26-da Türkiyənin İstanbul şəhərində izdihamlı yürüş keçirilib. Yürüş Azərbaycanın İstanbuldakı baş konsulluğu və İstanbulun Bağçılar Bələdiyyəsinin təşkilatçılığı ilə baş tutub. AZƏRTAC xəbər verir ki, yürüşdə Azərbaycandan gəlmiş nümayəndə heyəti, Türkiyə Böyük Millət Məclisinin deputatları, ictimaiyyətin və KİV-lərin nümayəndələri, ölkəmizin İstanbuldakı baş konsulluğunun, Bağçılar Bələdiyyəsinin əməkdaşları iştirak ediblər.



Əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqları, "Xocalı qətliamı. Unutmadıq, unutdurmayacağıq" sözləri, soyqırımı zamanı həlak olmuş insanların adları yazılmış plakatlar tutan yürüş iştirakçıları Bağçılar meydanından Azərbaycan Dostluq parkına doğru hərəkət ediblər.

Yürüşün məqsədi Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmək, ermənilər tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi.









Əvvəlcə Azərbaycanın və Türkiyənin dövlət himnləri səsləndirilib, Xocalı soyqırımı qurbanlarının xatirəsi ehtiramla yad edilib.

Tədbirdə çıxış edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım 27 il əvvəl Azərbaycanın Xocalı şəhərində insanlıq dramının yaşandığını bildirib. Qeyd edilib ki, bu faciə yalnız azərbaycanlılara deyil, bütün türk millətinə, insanlığa qarşı törədilən cinayətdir. Şamil Ayrım Xocalı qətliamı zamanı 613 günahsız insanın, o cümlədən 106 qadının, 63 uşağın və 70 qocanın xüsusi qəddarlıqla öldürüldüyünü, 1275 insanın əsir və girov götürülərək işgəncələrə məruz qaldığını xatırladıb. Bildirib ki, ermənilər əsrlər boyu Qarabağ torpağında bir çox qanlı cinayətlər törədiblər və tarixdə bunun sübutları var. Qarabağın sadəcə Azərbaycanın deyil, bütün türk dünyasının qanayan yarası olduğunu bildirən dostluq qrupunun rəhbəri bu qətliamı törədənlərin cəzalandırılmasının, haqq-ədalət qarşısında cavab verməsinin vacibliyini vurğulayıb.





Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov çıxış edərək Azərbaycanın artıq 30 ildir Cənubi Qafqazda sülh axtarışında olduğunu bildirib. Qeyd edib ki, 27 ildir biz Xocalıya ədalət axtarırıq. Bu müddət ərzində biz bu soyqırımının nəticələri, onun qurbanları barədə həqiqətləri dünyaya çatdırırıq. Əlbəttə, bu istiqamətdə əldə etdiyimiz nəticələr var. Türkiyə Respublikası və türk xalqının dəstəyi ilə biz dünyanın böyük bir qisminə bu qətliamın həqiqətlərini çatdıra bilmişik. Türkiyə də daxil olmaqla dünyanın, demək olar ki, bütün dövlətləri Xocalıda nələrin baş verdiyini bilirlər. Bu günədək dünyanın 10-dan çox ölkəsi, ABŞ-ın 22 ştatı Xocalıda baş verənləri soyqırımı kimi tanıyıb. Biz Xocalı soyqırımının səbəb və nəticələrini daha geniş coğrafiyada tanıtmaq istiqamətində işlərimizi davam etdiririk. Xocalıya ədalət axtarışı Azərbaycanın dövlət siyasətidir və biz bu siyasəti artıq təkcə Azərbaycan deyil, Türkiyənin köməyi, türk xalqının iştirakı ilə həyata keçiririk. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan 2007-ci ildə Bakıda Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin forumunda iştirak ediblər. Həmin toplantıdan sonra biz bir millət, iki dövlət olaraq diaspor qurumlarımızı birləşdirmişik və vahid diaspor siyasəti yürüdürük. Bu gün dünya ölkələrində azərbaycanlılar qədər, türklər də Xocalıya ədalət uğrunda çalışırlar. Bu günlərdə Türkiyənin hər bir bölgəsində Xocalı qətliamı qurbanlarının xatirəsi yad edilir.

Digər çıxış edənlər Xocalıda törədilmiş soyqırımı haqqında tədbir iştirakçılarına məlumat veriblər. Qeyd edilib ki, orada insanlar azərbaycanlı və müsəlman olduqlarına görə qətlə yetiriliblər. Buna görə də Xocalı soyqırımı yalnız Azərbaycana qarşı deyil, bütün türk və müsəlman dünyasına, eyni zamanda, insanlığa qarşı törədilmiş bəşəri cinayətdir.

Sonra tədbir iştirakçıları parkda inşa edilmiş "Xocalını unutma" abidəsinin önünə güllər düzüblər.

Xocalı soyqırımında qətlə yetirilmiş insanların sayına uyğun olaraq parkda 613 ağac əkilib.

## Küveyt Dövlətinin Əmiri əlahəzrət Şeyx Sabah əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Küveyt arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## Küveyt Dövlətinin vəliəhdi əlahəzrət Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə təbriklərimi yetirir, Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Küveyt xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## Küveyt Dövlətinin Baş naziri əlahəzrət Şeyx Cabir əl-Mübarək əl-Həməd əs-Sabaha

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan-Küveyt münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Küveyt xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 fevral 2019-cu il*

## Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsini gücləndirmək və onlara dövlət qayğısını artırmaq məqsədi ilə **qərara alıram:**

1. Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin məbləği 2019-cu il aprelin 1-dən 50 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu sərəncama uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu sərəncama uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 fevral 2019-cu il*

# *Əli Həsənov:* "Xocalı soyqırımını törədənlər illərlə Ermənistanı idarə etdilər"

Fevralın 25-dən 26-na keçən gecə ermənilər sovet tankları və Sovet İttifaqının 366-cı motoatıcı alayının dəstəyi ilə Xocalı şəhərinə hücum etdilər. Xocalı şəhəri bir gecədə yer üzündən silindi, 613 nəfər, o cümlədən qadınlar, uşaqlar və yaşlılar vəhşicəsinə qətlə yetirildi. Yüzlərlə sakin əsir alındı. Onlardan 150-dən çoxunun taleyi hələ də məlum deyil. Ermənilər dinc əhalinin yaşadığı şəhərdə insanlığa sığmayan dəhşətli qətliam törətdilər. Xocalı soyqırımını törədənlər sonradan Ermənistanda illərlə baş nazir və prezident vəzifələrində ölkəni idarə etdilər. Hətta Ermənistanın sabiq prezidenti Serj Sarkisyan Xocalıdakı qətliama israrla bəraət qazandıraraq, o gecə törətdiklərini etiraf etdi. AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri, professor Əli Həsənov Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Türkiyənin Anadolu Agentliyinə müsahibəsində deyib.





İyirmi yeddi il əvvəl törədilən Xocalı faciəsinin ermənilərin son 200 ildə azərbaycanlılara qarşı törətdikləri soyqırımlarından biri olduğunu vurğulayan Əli Həsənov ermənilərin Qafqazda möhkəmlənmək üçün həyata keçirdikləri etnik təmizləmə siyasətinin bunun ən mühüm səbəbi olduğunu bildirib. Ermənilərin bu siyasəti havadarlarının dəstəyi ilə həyata keçirdiklərini qeyd edən Prezidentin köməkçisi deyib: "Tarixi faktlar göstərir ki, azərbaycanlılar erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasətinə məruz qalıb, öz tarixi torpaqlarından didərgin salınıb, qaçqın və məcburi köçkünə çevriliblər. "Böyük Ermənistan" xülyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda soyqırımları törədiblər. Təkcə XX əsrdə azərbaycanlılar dörd dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə soyqırımı və etnik təmizləmələrə məruz qalıblar. 1915-1918-ci illərdə ermənilər Bakıda, Qubada və Azərbaycanın digər bölgələrində Xocalı qətliamından daha qanlı və insan təlefatı baxımından daha böyük soyqırımları törədiblər. Ermənilər həmin dövrdə təkcə Bakıda təxminən 20 min nəfəri qətlə yetiriblər. Daha sonra 1948-1953-cü illərdə Sovet İttifaqı tərəfindən 150 min azərbaycanlı Ermənistandan deportasiya edilib. Bununla da Ermənistanda heç bir türkün və müsəlmanın qalmaması ilə bağlı məqsədlərinə çatmaq yolunda böyük addım atılıb".

Ermənilərin 1988-ci ildən Sovet İttifaqının dağılmasına qədər olan dövrdə azərbaycanlılara qarşı açıq şəkildə torpaq iddiası qaldırdıqlarını bildirən Əli Həsənov bu işğalçılıq siyasəti nəticəsində 1988-1994-cü illərdə Dağlıq Qarabağ bölgəsinə və ətraf rayonlara fasiləsiz hücumların olduğunu vurğulayıb. İşğal nəticəsində bir milyondan çox azərbaycanlının məcburi köçkünə çevrildiyini, yaşayış məntəqələrinin yerlə yeksan edildiyini, kütləvi qətliamların törədildiyini deyən Prezidentin köməkçisi Xocalı soyqırımının bunların arasında ən qanlı faciə olduğunu deyib.

Xocalı soyqırımı ilə bağlı həqiqətlərin bütün dünyaya çatdırılmasında Anadolu Agentliyinin də rolunu xüsusi vurğulayan Əli Həsənov deyib: "Qətliamdan sonra bütün dünya mediası yaşanan dəhşəti öz səhifələrində təqdim etdi. Azərbaycan həmin dövrdə informasiya blokadasında idi. Bu blokada Anadolu Agentliyinin dəstəyi ilə yarıldı və soyqırımı həqiqətləri dünyaya çatdırıldı. 1993-cü ildə ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının dəstəyi ilə Prezident seçilməsindən sonra ölkəmiz sürətlə inkişaf etməyə başladı. Bütün sahələrdə olduğu kimi, media sahəsində də əsaslı dəyişikliklər baş verdi. İndi Azərbaycan mediası dünyanın ən güclü media qurumları ilə rəqabət aparacaq səviyyədədir".

Ermənistanın işğalçılıq siyasətini bu gün də davam etdirdiyini bildirən Əli Həsənov BMT, Avropa İttifaqı, Avropa Şurası və NATO kimi beynəlxalq qurumların qərar və qətnamələrinin tələblərinin yerinə yetirilmədiyini diqqətə çatdıraraq, Ermənistanın işğal etdiyi əraziləri qeyd-şərtsiz tərk etməsinin vacibliyini vurğulayıb.

"Ermənistanın işğalçılıq siyasətini davam etdirməsi hər an qanlı müharibəni alovlandıra bilər", - deyən Əli Həsənov 2016-cı ilin Aprel döyüşlərinin yeni bir müharibənin necə ağır nəticələr doğura biləcəyini göstərdiyini bildirib: "2016-cı ilin Aprel döyüşləri Azərbaycan Ordusunun qısa müddətdə öz torpaqlarını işğaldan azad etmək gücündə olduğunu Ermənistana və bu ölkənin himayədarlarına göstərdi. Bu gün müasir silahlara sahib olan Azərbaycan Ordusu dünyanın ən güclü və hazırlıqlı ordularından biridir. Ermənistanın işğalçılıq siyasətinin davam etməsi hər an qanlı müharibənin fitilini alovlandıra bilər. Bu müharibədə on, bəlkə də yüz minlərlə insan həlak ola bilər. Amma biz münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh yolu ilə həllinin tərəfdarıyıq. BMT, Avropa İttifaqı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı kimi mötəbər beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət olaraq tanıyıb, işğal altındakı torpaqların azad olunmasını tələb ediblər. Lakin ermənilər beynəlxalq hüquq normalarına, bu qərar və qətnamələrə hörmətsizlik göstərirlər".

Türkiyə ilə Azərbaycan arasında sarsılmaz əməkdaşlığın olduğunu vurğulayan Əli Həsənov 2007-ci ildə Bakıda keçirilən qurultayın bunun konkret göstəricisi olduğunu bildirib. İkitərəfli əlaqələrin dövlətlərimizin başçılarının birgə səyləri ilə daha da gücləndiyini qeyd edən Prezidentin köməkçisi deyib: "Azərbaycan dövləti ulu öndər Heydər Əliyevin hakimiyyəti dövründə, indi isə Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımının dünyada tanıdılması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün bütün lazımi addımları atıb və atmağa davam edir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev "Bir millət, iki dövlət" olduğumuz kimi, "iki dövlət, bir lobbi", "iki dövlət, bir diaspor" istiqamətində qəti iradə nümayiş etdirirlər.

2007-ci ildən etibarən bütün dünyada Türkiyə və Azərbaycanı təmsil edən lobbi və diasporlar həm Ermənistanın uydurma soyqırımı iddialarına qarşı, həm də Xocalı soyqırımının dünyaya çatdırılması məsələsində birlikdə mübarizə aparır. Buna dövlətlərimiz, ziyalılarımız, universitetlərimiz, tələbələrimiz, bütün sosial media vasitələrimiz və dövlət təşkilatlarımız dəstək verir. Erməni diasporu və dövləti, qondarma soyqırımı iddialarını davamlı olaraq gündəmdə saxlamaqla, əslində, Xocalı soyqırımını unutdurmağa çalışır. Hər il beynəlxalq platformalarda ermənilərin soyqırımı iddialarının yalan olduğunu, əslində ermənilərin Anadolu türklərinə və azərbaycanlılara qarşı qırğınlar törətdikləri ilə bağlı bütün həqiqətləri dünyaya çatdırırıq. Dünya artıq bir virtual informasiya şəbəkəsinə çevrilib. Türkiyə və Azərbaycan sosial şəbəkələrdəki mübarizədə birgə hərəkət etməlidir. Biz, iki qardaş dövlət olaraq, birlikdə fəaliyyət göstərməyin gücümüzə güc qatacağına inanırıq".

Əli Həsənov qondarma soyqırımı iddialarını qəbul edən ölkələrdə ermənilərin lobbiçilik fəaliyyəti barədə danışaraq deyib: "Bəzi Avropa dövlətləri Ermənistanın heç bir sübutu olmayan qondarma soyqırımı iddialarını tanıyır. Lakin 27 il əvvəl bütün dünyanın gözləri qarşısında törədilən Xocalı qətliamını hansı səbəbdən görmür? Amma biz burada da işləri dayandırmamalıyıq. Bu dövlətlərin ictimaiyyəti, parlamenti, vətəndaş təşkilatları və xalqı ilə çalışmalıyıq. Biz konfranslar təşkil edərək onlara faktları çatdırmalıyıq. Biz ermənilərin soyqırımı iddialarının yalan olduğunu və 27 il əvvəl Xocalıda baş verənlərin həqiqət olduğunu anlatmalıyıq. Bunu hamımız birlikdə etməliyik. Azərbaycan diasporunun güclü olduğu yerdə azərbaycanlılar, türk diasporu güclü olan yerdə türklər bu məsələni gündəmdə saxlamalıdırlar".

İslam dünyasına çağırış edən Əli Həsənov söhbətini bu sözlərlə yekunlaşdırıb: "Bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev beynəlxalq platformalarda Türk-İslam dünyasının maraqlarının qorunması və mövcud problemlərin həlli üçün birlikdə hərəkət edir. Bütün dünyada müsəlmanlara qarşı təzyiqlərə ən çox sinə gərən ölkələrin Türkiyə və Azərbaycan olması inkar edilə bilməz bir həqiqətdir. İslam dünyasının mövcud problemlərinə qarşı da heç bir zaman laqeyd qalmadıq. İslam dünyasındakı dövlətlər də bizim problemlərimizə biganə qalmamalı, həm Xocalı soyqırımının tanınmasında, həm də ermənilərin qondarma soyqırımı iddialarına qarşı mübarizədə iştirak etməlidir. Unutmamalıyıq ki, ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında həm müsəlman qırğını törədib, həm də müsəlmanların müqəddəs yerlərini dağıdıblar".

# “Xocalıya ədalət!” kampaniyası çərçivəsində Suraxanı rayonunda ağacəkmə aksiyası keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” kampaniyasının təşəbbüskarı Leyla Əliyeva aksiyada iştirak edib



Fevralın 26-da “Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində Bakının Suraxanı rayonundakı “Neftçilər” parkında ağacəkmə aksiyası keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, “Xocalıya ədalət!” kampaniyasının təşəbbüskarı Leyla Əliyeva aksiyada iştirak edib.

Suraxanı rayon gənclərinin və Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Regional İnkişaf İctimai Birliyinin nümayəndələrinin iştirak etdikləri aksiyada Xocalı soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə 613 ağac əkilib.

Aksiyada 200-dən çox gənc iştirak edib.

“Xocalıya ədalət!” beynəlxalq maarifləndirmə kampaniyası Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən həyata keçirilir. Kampaniya Xocalı soyqırımının, Ermənistan-Azərbaycan münaqişəsinin tarixi səbəbləri və nəticələri, həmçinin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz və dərhal çıxarılmasının zəruriliyi ilə bağlı beynəlxalq maarifləndirmənin artırılması məqsədi daşıyır. Kampaniyanın fəaliyyəti həmçinin Xocalı soyqırımı qurbanlarının xatirəsinin yad edilməsinə, sağ qalmış ailələrə dəstək göstərilməsinə, bu hadisələrin yaddaşlarda yaşamasına, xüsusən də gənc nəsil tərəfindən unudulmamasına yönəlib. Kampaniya çərçivəsində təşkil edilən tədbirlərdə əsas diqqət kütləvi qırğınlara, etnik təmizləmə, irqi və ya dini ayrı-seçkilik hallarına qarşı güclü müqaviməti nümayiş etdirməyə, Xocalı soyqırımı qurbanları ilə həmrəyliyi ifadə etməyə və Xocalıda azərbaycanlılara qarşı törədilmiş cinayətlərə görə cəzasızlıq halları ilə mübarizəyə istiqamətlənib. Bu kampaniya bir çox ölkələrdə səmərəli şəkildə fəaliyyət göstərir.

# Müasir İncəsənət Muzeyində xalq rəssamı Arif Hüseynovun “Qarabağnamə - tarixin səhifələri” adlı sərgisi açılıb





Fevralın 26-da Müasir İncəsənət Muzeyində xalq rəssamı, professor Arif Hüseynovun Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar “Qarabağnamə - tarixin səhifələri” adlı sənədli-bədii qrafika sərgisi açılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun dəstəyi ilə reallaşan sərgidə rəssamın 50-dən çox sənədli-bədii qrafika əsəri nümayiş olunur.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgi ilə tanış olub.

Müasir İncəsənət Muzeyinin müdiri Xəyyam Abdinov deyib ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar müxtəlif anım tədbirləri keçirilir. Heydər Əliyev Fondunun dəstəyi ilə ölkəmizdə və xaricdə təşkil edilən bu cür tədbirlər sayəsində dünya ictimaiyyətinin Xocalıya olan diqqəti daha da artır. Xalq rəssamı Arif Hüseynovun Qarabağ mövzusunda əsərlərindən ibarət bugünkü sərgi də Heydər Əliyev Fondunun dəstəyi ilə təşkil edilib və buna görə fondun rəhbərliyinə təşəkkür edirik.

Sərginin əhəmiyyətindən danışan X.Abdinov deyib ki, ekspozisiyada nümayiş olunan əsərlər tarixi materiallara əsaslanır. Bu əsərlərdə Alban kilsəsi, tarixi yerlərin mənzərələri və tarixi şəxsiyyətlərin portretləri təsvir olunub. Əsərlərdə Türkmənçay müqaviləsi, alban kilsələrinin dəyişdirilməsi, Xocalıya aid kompozisiyalar əks etdirilir.

Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev vurğulayıb ki, xalqımızın tarixində yaşanan kədərli və fərəhli hadisələrə hər zaman sənətkarlarımız tərəfindən bədii münasibət göstərilib. Xocalı soyqırımı xalqımızın tarixində elə dəhşətli hadisələrdəndir ki, ona münasibət göstərməmək qeyri-mümkündür.

“Xalq rəssamı Xanlar Əhmədov, tanınmış kinorəssam Nazim Məmmədov və digər fırça ustaları bu hadisələri öz əsərlərində təsvir ediblər. Arif Hüseynovun əsərlərində tarixə, yaşanılan hadisələrə sənədli münasibət mövcuddur. Düşünürəm ki, belə əsərlərin ölkəmizin hüdudlarından kənarda da nümayişi vacibdir. Bu əsərlər Xocalı faciəsinin dünyaya tanıdılması və təbliğində yardımçı ola bilər. Sərginin təşkil olunmasına verdiyi dəstəyə görə Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığımızı bildiririk”, - deyə Ziyadxan Əliyev bildirib.

Azərbaycan Rəssamlar İttifaqının sədri, xalq rəssamı Fərhad Xəlilov söyləyib ki, sərgidəki əsərlərdə xalqımızın ağrı-acıları əks olunub. Belə sərgilər mütəmadi olaraq təşkil edilməlidir.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, xalq rəssamı Səhlab Məmmədov, kinorejissor, xalq artisti Oqtay Mirqasımov çıxış edərək sərginin əhəmiyyətini vurğulayıb, müəllifə yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra tədbirin iştirakçıları sərgi ilə tanış olublar.

Xalq rəssamının sərgidə nümayiş etdirilən “I Pyotrun məktubu”, “Türkmənçay müqaviləsi”, “Güllələnmiş heykəllər”, “Qarabağ müharibəsi”, “Pənahəli xan”, “Xalq musiqiçiləri” kimi əsərlərində tarixi həqiqətlərin rəssam təxəyyülü ilə ərsəyə gətirdiyi təsvirlər kifayət qədər cəlbedici və yaddaqalandır. Sərgidəki bütün əsərlər qravüra janrında işlənilib. Sərgi bütövlükdə tarixi faktlar əsasında qurulub və maarifləndirici xarakter daşıyır.

Uzun illərdir ki, rəssam vaxtının bir hissəsini gənc nəslin nümayəndələri, uşaq və yeniyetmələrlə işləməyə sərf edir. Azərbaycan təsviri incəsənətinin gələcəyi üçün yeni rəssamlar hazırlayır. Rəssam öz əsərləri ilə Azərbaycan xalqının zəngin daxili dünyasını və xüsusiyyətlərini təsvir edir. Əsərlər tarixi materiallara əsaslanır. Silsiləyə daxil olan əsərlərdə alban kilsəsi, tarixi faktlar, tarixi yerlərin mənzərələri və tarixi şəxsiyyətlərin portretləri təsvir olunur.

# “Xocalıya ədalət!” kampaniyası çərçivəsində “Ağrı gecəsi” adlı tədbir keçirilib

## Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tədbirdə iştirak edib











Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə fevralın 26-da Bakı Konqres Mərkəzində “Ağrı gecəsi” adlı tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində təşkil olunan tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə həmçinin Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, deputatlar, gənclər təşkilatlarının nümayəndələri iştirak ediblər.

Əvvəl faciə qurbanlarının xatirəsi yad olunub.

Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov tədbirdə çıxış edərək bildirib ki, xalqımız son iki əsrdə erməni millətçiləri tərəfindən dəfələrlə soyqırımına məruz qalıb. Sonuncu dəhşətli faciə Xocalıda törədilib. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni təcavüzkarları Azərbaycanın Xocalı şəhərində bəşər tarixində misli görünməmiş soyqırımı həyata keçiriblər. Həmin gecə erməni silahlı birləşmələri keçmiş SSRİ-yə məxsus 366-cı motoatıcı alayın köməyi ilə Xocalı şəhərinə dörd tərəfdən hücum ediblər. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı nəticəsində bir gecədə 106-sı qadın, 63-ü uşaq, 70-i ahıl insanlar olmaqla 613 nəfər xüsusi qəddarlıqla qətlə yetirilib.

Xüsusi vurğulanıb ki, təkcə xalqımıza qarşı deyil, bütün insanlığa qarşı törədilmiş Xocalı soyqırımı haqqında həqiqətlərin dünyaya çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması üçün Azərbaycan dövləti bütün zəruri addımları atır. Bu sahədə məqsədyönlü fəaliyyət ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıdandan sonra başlanıb. Ulu öndərin təşəbbüsü ilə Xocalı soyqırımına siyasi-hüquqi qiymət verilib. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış “Xocalıya ədalət!” beynəlxalq kampaniyası soyqırımının tanınmasında mühüm rol oynayıb. Bu istiqamətdə iş ardıcıl davam etdirilir və “Xocalıya ədalət!” kampaniyası çərçivəsində görülən işlərin miqyası ildən-ilə daha da genişlənir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədr müavini Fuad Hüseynov Xocalı faciəsinin tariximizin silinməz qanlı yaddaşı olduğunu diqqətə çatdırıb. O bildirib ki, 27 il əvvəl Xocalıda dinc soydaşlarımıza qarşı misli görünməmiş qanlı qırğın törədilib. Yüzlərlə soydaşımız Ermənistan silahlı qüvvələri tərəfindən amansızlıqla qətlə yetirilib. Bu qətliam barədə həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması istiqamətində sistemli işin uğurla nəticələndiyini deyən Fuad Hüseynov bu yöndə səylərin birləşdirilməsinin vacibliyini qeyd edib.

Xocalı faciəsinin canlı şahidləri Əsəd Fərəcov və Valeh Hüseynov soyqırımının dəhşətləri barədə tədbir iştirakçılarına məlumat veriblər.

Tədbirdə beynəlxalq münasibətlər üzrə tanınmış israilli ekspert Arye Qut və atası, yazıçı Əmir Qutun birgə qələmə aldıqları, ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xocalı soyqırımından bəhs edən “Ağrı” bədii-sənədli romanının təqdimatı olub.

Romanın həmmüəllifi Arye Qut əsərin yazılması səbəbləri haqqında danışaraq, əsas məqsədin Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı və ötən əsrin ən dəhşətli etnik təmizləmələrindən biri olan Xocalı soyqırımı haqqında dünya ictimaiyyətinə geniş məlumat vermək olduğunu bildirib. O, əsərin real hadisələrə, Xocalı qətliamını yaşamış şahidlərin söylədikləri faktlara əsaslandığını bildirərək, kitabda ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı qırğın, vəhşiliklər və digər cinayətlərin üzə çıxarılması və günahkarların cəzalandırılması üçün çağırış edildiyini diqqətə çatdırıb.

Qeyd edək ki, “Ağrı” romanında XX əsrin faciəsi - Xocalı soyqırımı ətraflı təsvir olunub. Müəlliflər canlı şahidlərin - Xocalıda kütləvi qırğından sağ çıxa bilmiş sakinlərin ifadələri əsasında “əzabkeş” erməni xalqının iç üzünü açıb, Azərbaycan xalqının kədərini və faciəsini ürək ağrısı ilə təsvir ediblər. Əsərdə müxtəlif dinlərə və millətlərə mənsub olan, fərqli mühitlərdə böyümüş, taleyin qisməti ilə gözəl Bakı şəhərində rastlaşan iki gəncin - Polad və Röyanın sevgi tarixçəsi təsvir olunur. Bildirilir ki, Röya hələ uşaq ikən erməni cəlladlarının Azərbaycanın Xocalı şəhərinin dinc sakinlərinə qarşı törətdikləri amansız qırğının şahidi olub. O, xalqının zorla cəlb edildiyi müharibənin bütün itki və dəhşətlərini yaşayıb. Röya böyüdükdən sonra soyqırımı zamanı sağ qalmış həmyerlilərinə itkin düşmüş doğmalarını və yaxınlarını tapmaq üçün kömək etmək qərarına gəlir. O, var qüvvəsi ilə Xocalı soyqırımı barədə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına çalışır.

Sonda “Xocalı” faciəsi ilə bağlı film nümayiş etdirilib.

Bakı Konqres Mərkəzinin foyesində soyqırımı ilə bağlı rəsm sərgisi də təşkil olunub.

# Tarix İnstitutunda Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb





Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə təsdiq olunmuş “Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsinə dair tədbirlər planı”na əsasən fevralın 25-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunda elmi konfrans keçirilib. Tədbir Tarix İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurası və Qadınlar Şurasının birgə təşkilatçılığı ilə reallaşıb.

İnstitutdan AZƏRTAC-a bildirilib ki, Milli Məclisin deputatı, akademik Yaqub Mahmudov 20 Yanvar və Xocalı faciələrinin 1918-ci il mart soyqırımının davamı olduğunu qeyd edib. O vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, Ermənistan Azərbaycan torpaqlarını hələ də işğal altında saxlamaqda davam edir. Tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan ərazisində və ölkəmizin işğal olunmuş Qarabağ torpaqlarında abidələr məhv edilir və tarix saxtalaşdırılır.

Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini, dosent Cəbi Bəhramov qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü və himayəsi ilə institut soyqırımına həsr olunan 5 beynəlxalq konfrans keçirib. İnstitutda Azərbaycan xalqına qarşı soyqırımları tarixini araşdıran ayrıca şöbə fəaliyyət göstərir: “Biz Bakıda, Şamaxı və Quba qəzalarında, Qarabağda, Zəngəzurda, İrəvan quberniyasında, Naxçıvanda, Şərqi Anadoluda və Urmiya bölgəsində erməni-daşnak quldurlarının törətdiyi soyqırımları haqqında ayrı-ayrılıqda monoqrafiyalar çap etdirmişik”.

AMEA-nın Qadınlar Şurasının sədri, professor Rəna Mirzəzadə bildirib ki, Xocalı faciəsi Azərbaycanın 200 illik qanlı tarixinin son soyqırımıdır.

Tarixçi alimlər Vaqif Abışov, Raisə Cəfərova və Rəşad Mustafa qeyd ediblər ki, Tarix İnstitutu erməni təcavüzkarlarının işğalçılıq siyasətinə qarşı müxtəlif dillərdə “Qarabağ: real tarix, faktlar, sənədlər”, “İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri”, “İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı” və digər kitabları nəşr etdirib.

Gənc tədqiqatçılar Ramin Quliyev, Lamiyə Sultanova, Günay Nəciyeva və Nərmin Xanməmmədova öz məruzələrində bildiriblər ki, XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1906-cı, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə kütləvi qırğınlar, soyqırımları və etnik təmizləmələrə məruz qalıblar.






# Dünyanı ədalətə səsləyən yürüş

*Dünən Bakıda Xocalı faciəsinin 27-ci ildönümü ilə bağlı ümumxalq yürüşü keçirildi. Prezident İlham Əliyevin önündə addımladığı bu yürüş Xocalı soyqırımının anım gününün Azərbaycan xalqının milli birliyinin simvoluna çevrildiyini növbəti dəfə dünyaya nümayiş etdirmiş oldu. İşğalçı Ermənistan və onun havadarları bir daha əmin oldular ki, işğal edilən torpaqlar azad edilməyincə, Xocalı soyqırımına layiqli qiymət verilməyincə Azərbaycan bu mübarizədən bir addım da geri çəkilməyəcək.*

*Əməkdaşlarımız yürüşdə iştirak edən insanlarla söhbətləşərək onların fikirlərini qələmə alıblar.*

## Yenə də liderimizin ardınca gedirdik

**Amil CAVADOV,**
*YAP Gənclər Birliyinin Şura üzvü:*



- Bəşəriyyətə qarşı ən böyük cinayətlərdən olan Xocalı faciəsindən 27 il ötsə də, Azərbaycan xalqı bu qanlı faciəni unutmur, unutmayacaq da. Dünya bir daha buna şahidlik etdi. Hər kəsə bəlli oldu ki, nə qədər ikili standartlar tətbiq edilsə də, haqqı tapdansa da Azərbaycan xalqı ayaqdadır və bu mübarizədən qətiyyən geri çəkilməyəcək.

Ümumxalq yürüşünün önündə Ali Baş Komandan İlham Əliyevin ailə üzvləri ilə birgə addımlaması isə hər birimizi qürurlandırdı. Bu, ilk növbədə soyqırımı qurbanlarının, şəhidlərin ruhu qarşısında insanlıq borcumuz idi. Eyni zamanda bu yürüş xalqın daim Prezidentin yanında olduğunu, cənab İlham Əliyevin ərtafında bir yumruq kimi birləşdiyini göstərdi. Hər zaman belə olub və bundan sonra da belə olacaq.

"Xocalıya ədalət!" şüarı ilə "Ana harayı" abidəsinə doğru gedən minlərlə insanın ayaq səsləri dünyanı terrorizmin qarşısını qətiyyətlə və birgə səylə almağa, insanları rənginə, irqinə, dininə, millətinə görə növlərə bölmədən bütün hüquqlarını qətiyyətlə qorumağa çağırırdı.

Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin minlərlə üzvünün də iştirak etdiyi bu yürüş göstərdi ki, torpaqlarımızın işğaldan azad ediləcəyi günə, soyqırımı qurbanlarının qanının yerdə qalmayacağına çox qalmayıb. Yürüş işğalçı Ermənistana da mesaj ünvanladı - Azərbaycan xalqı heç vaxt işğal, təcavüz faktı ilə barışmayacaq.

Hesab edirəm ki, Xocalıda törədilmiş vəhşiliyin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün hər bir azərbaycanlı, xüsusən də gənclər üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir. Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin minlərlə üzvü də bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında fəallıqlarını artırmışlar.

Bu istiqamətdə keçirilən tədbirlərin coğrafiyası genişləndirilmişdir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın bu məsələdə xidmətləri xüsusilə qeyd edilməlidir. Bu sahədə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası çərçivəsində görülən işlər də təqdirəlayiqdir.

Dövlət başçısının siyasi iradəsi, bu istiqamətdə atdığı addımlar, apardığı danışıqlar nətəcəsində dünyanın bir çox ölkələri, beynəlxalq təşkilatlar Ermənistanı təcavüzkar ölkə kimi tanıyırlar.

Əminliklə vurğulayıram ki, Ermənistanın işğalçılıq siyasətinin beynəlxalq aləmdə ifşa edilməsinə nail olmaq üçün qüvvələrini səfərbər edən YAP Gənclər Birliyinin bütün üzvləri bundan sonra da ciddi çalışacaq və Azərbaycan Prezidentinin bu istiqamətdə apardığı siyasətə öz töhfəsini vermək üçün əlindən gələni əsirgəməyəcək.

## "Xocalıya ədalət!" dünyanın çağırışına çevrilməlidir

**Vüsalə HÜSEYNOVA,**
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdirinin müavini:*

- Təkcə Azərbaycan tarixinə yox, dünya tarixinə də ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olan Xocalı soyqırımı bu gün həm də dünya azərbaycanlılarını bir araya gətirir.



O baxımdan ki, hər bir azərbaycanlı bu faciəni anaraq, ona dünya miqyasında layiqli qiymətin verilməsini, günahkarların cəzalandırılmasını tələb edir. Bu məsələdə hər bir azərbaycanlı Prezident İlham Əliyevin qətiyyətli mövqeyini dəstəkləyir, dövlət başçısının rəhbərliyi altında faciəyə müvafiq beynəlxalq qiymətin verilməsi üçün aparılan işə öz töhfəsini verməyə çalışır. Bunu Xocalı soyqırımının 27-ci ildönümü münasibəti ilə on minlərlə insanın iştirakı ilə keçirilən yürüş də yenidən təsdiqlədi.

Dünyanın izlədiyi bu yürüşlə beynəlxalq miqyasda çox aydın şəkildə görünür ki, Azərbaycan xalqı növbəti dəfə erməni millətçi-şovinistlərinin etnik təmizləməsinə, soyqırımı siyasətinə məruz qalıb. Azərbaycanlılar tarixi torpaqlarından qovulub, qaçqına, məcburi köçkünə çevrilib. Dünya onu da yaxşı bilir ki, Xocalıda törədilmiş cinayətlər sıradan və təsadüfi hərəkət deyil. Bu hal Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsi olub və Xocalıdakı mülki insanların məqsədyönlü qırğınına yalnız azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlib. Məhz bütün bunların fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, bu faciənin xalqımıza qarşı soyqırımı aktı kimi tanınması prosesi davam etdirilir, bunun üçün bütün imkanlardan istifadə olunur. Belə dəhşətli faciələri törədənlərin, günahsız insanları amansızcasına qətlə yetirənlərin cəzalandırılması şübhəsiz ki, zaman məsələsidir.

Azərbaycan bu istiqamətdə apardığı işlərlə Xocalı soyqırımını törədənlərin kimliyini ən təkzibedilməz sübut və faktlarla dünya ictimaiyyətinə çatdırıb. Sadəcə, beynəlxalq hüquq, qəbul olunmuş konvensiyaların tətbiqi yetərlidir ki, bu faciəni törədənlər layiqli cəzalarına çatsınlar.

Buna hələ də maneçilik yaradan ikili standartların aradan qaldırılması üçün də Azərbaycan məqsədyönlü iş aparır. Qeyd edilən istiqamətdə əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kurs hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Elə bundan irəli gəlir ki, artıq bir sıra ölkələr Xocalı faciəsini soyqırımı olaraq tanıyıblar. Belə ki, dünyanın 13 ölkəsi parlament səviyyəsində, ABŞ-ın 22 ştatı parlament səviyyəsində, İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını rəsmən tanıyıb. Avropa İnsan Haqları Məhkəməsi 2010-cu il 22 aprel tarixli qərarında Xocalının azərbaycanlılardan ibarət mülki əhalisinin qırılmasını "müharibə cinayətləri və ya insanlığa qarşı cinayətlər kimi qiymətləndirilə bilən xüsusilə ağır əməllər" kimi müəyyən edib.

Bu prosesdə Leyla xanım Əliyevanın rəhbərliyi ilə aparılan "Xocalıya ədalət!" beynəlxalq təbliğat və məlumatlandırma kampaniyası da öz mühüm töhfəsini verib. Soyqırımın həm mənəvi, həm də siyasi-hüquqi tanınmasına yönəlmiş bu kampaniya elə indinin özündə də dünyanın bir çox ölkələrində uğurla reallaşdırılır. Görülən işlərin daha da genişləndirilməsi Xocalı faciəsini törədənlərin qanun qarşısında mütləq mənada cavab verəcəyini və bu günün uzaqda olmadığını tam qətiyyətlə deməyə əsas verir. Bu prosesdə azərbaycanlıların həmrəyliyi də öz mühüm rolunu oynayır.

## Xalqımızın birliyini nümayiş etdirən ümumxalq yürüşü

**Süleyman ATAKİŞİYEV,**
*Respublika Prokurorluğunun əməkdaşı:*



- Ötən əsrin ən dəhşətli cinayət hadisələrindən sayılan Xocalı soyqırımı təkcə Azərbaycan xalqının yox, həm də bütün bəşəriyyətin qəlbində sağalmayan yara hesab olunur. Erməni cəlladlarının xüsusi amansızlıqla törədiyi kütləvi qətlləri əks etdirən məlumatlar hələ də bütün dünyanı sarsıdır. Ermənilər tərəfindən bu qanlı qırğının törədildiyi vaxtdan 27 il keçsə də, faciənin dəhşətləri hələ də unudulmayıb.

Xocalı soyqırımının 27-ci ildönümündə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin öndərliyi ilə Azadlıq meydanından "Xocalı soyqırımı" adibəsinə edilən ümumxalq yürüşü zamanı bir daha əmin olduq ki, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil. Bu növbəti ümumxalq yürüşü Azərbaycan xalqının sıx birliyini, işğal altındakı torpaqların azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası üçün əlindən gələni etmək əzmini bir daha nümayiş etdirdi.

70 min insanın iştirak etdiyi bu yürüş ermənilərə və onların havadarlarına bir mesaj idi. Prezident İlham Əliyev bununla bir daha bəyan etdi ki, soyqırımı qurbanlarının qanı yerdə qalmayacaq, erməni vəhşiliyi daim bütün dünyaya çatdırılacaq, Ermənistanın təcavüzkar siyasəti ifşa ediləcək.

Azərbaycan Prezidentinin torpaqlarımızın işğaldan azad olunması üçün hər addımda qətiyyət nümayiş etdirməsi, erməni vəhşiliklərinin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması istiqamətindəki həssaslığı bizi qürurlandırır, cəmiyyətimizdəki vətənpərvərlik əhvali-ruhiyyəsini artırır.

Onu da qeyd edim ki, Xocalı soyqırımının dünyaya çatdırılması ilə əlaqədar Heydər Əliyev Fondu xüsusi layihələr həyata keçirir. Bu layihələr çərçivəsində Ermənistan silahlı qüvvələrinin Xocalıda törətdiyi qırğınla bağlı Rusiya, Türkiyə, Fransa, Macarıstan, Rumıniya, Belçika, Avstriya, Almaniya, Çexiya, İsveçrə və dünyanın bir çox ölkələrində silsilə tədbirlər keçirilib və keçirilməkdədir.

Bir məqamı da xüsusilə vurğulayaq ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da Xocalı soyqırımının beynəlxalq aləmdə tanınmasında böyük rolu olub. Hələ 2009-cu ildə onun təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası Xocalı soyqırımı haqqında həqiqətin dünyaya çatdırılmasında bu gün də vacib rol oynayır. Dünyada bu faciəyə hüquqi qiymət verənlərin sayının artması isə Ermənistanın törətdiyi cinayətin mahiyyətindən xəbər tutanların sayını sürətlə artırır.

## Dünya tarixinin qanlı cinayəti

**Qasım QASIMOV,**
*Dövlət Neft Şirkətinin əməkdaşı:*



- 27 il öncə Xocalıda dinc əhaliyə qarşı həyata keçirilən dəhşətli qətliamın ağrı-acısını bu gün də yaşayırıq. Bir gecənin içində şəhərin yerlə-yeksan edilib 613 dinc sakininin qətlə yetirilməsi dünya tarixinin ən qanlı cinayətlərindəndir.

Lakin bu cinayəti törətmiş insanlar hələ də beynəlxalq məsuliyyətə cəlb olunmayıblar. Dünya bu təcavüzə, soyqırımı aktına layiqli qiymət vermir. Səbəbi isə bizə yaxşı bəllidir. Lakin buna baxmayaraq Azərbaycan dövləti Xocalı faciəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyət göstərir.

Prezident İlham Əliyev isə Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq istiqamətində böyük səy göstərir. Dövlət başçısı elə bir beynəlxalq təşkilat yoxdur ki, orada çıxışında, elə bir müsahibəsi yoxdur ki, səsləndirdiyi fikirlərində işğalçı Ermənistandan, onun təcavüzkar siyasətindən bəhs etməsin. Bu da, əsl həqiqətlərin dünyaya çatdırılmasında böyük rol oynayır.

Dünən keçirilən ümumxalq yürüşü də bu siyasətin növbəti mərhələsi idi. Dövlət başçısının iştirakı ilə 2012-ci və 2017-ci illərdə də ümumxalq yürüşü keçirilmişdi. Minlərlə insanın qatıldığı bu yürüşdə Azərbaycan xalqı Xocalı faciəsinin günahkarları cəzalandırılmayana qədər barışmaz mövqe tutacağını dünya ictimaiyyətinə bir daha çatdırdı. Prezidentin arxasınca addımlayan on minlərlə insan öz susqunluğu ilə dünya birliyindən ikili standartlara son qoyulmasını, dünyanın gözü önündə baş verən qanlı cinayətə qiymət verilməsini tələb edirdi.

Dünyanı ədalətə səsləyən ümumxalq yürüşü bir daha göstərdi ki, Azərbaycan xalqı sülh və tapdalanmış hüququnun ədalətli həllini istəyir. Azərbaycanı istəyən də, istəməyən də şahidi oldu ki, xalq hər zaman öz liderinin arxasındadır və bu birlik gec-tez öz haqqına sahib çıxacaq. O zaman Xocalıda qətlə yetirilən günahsız insanların və bütün şəhidlərimizin ruhu şad olacaq.

***Elçin CƏFƏROV,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli birlik

27 ildir ki, soydaşlarımızın dilinin əzbərinə, nənələrin ağı-bayatısına çevrilib tar-mar edilən, "tonqal"lara atılan ulu yurd yerimiz - Xocalımız. Dünən paytaxt sakinləri, eləcə də şəhərin qonaqları Xocalı soyqırımının növbəti anım tədbirinə toplanmışdı. Azadlıq meydanından başlayan yürüş Xətai rayonu ərazisindəki "Ana harayı" abidəsinə istiqamət götürdü. Azərbaycan Prezidenti İlham Əliyevin və ailə üzvlərinin, rəsmi dövlət orqanlarının, xarici ölkələrin respublikamızdakı diplomatik korpusunun nümayəndələrinin, Milli Məclisin deputatlarının, dövlət və ictimai xadimlərin, ayrı-ayrı idarə və müəssisələrin, ali məktəb tələbə-müəllim heyətlərinin qatıldığı yürüşün izdihamı milli birliyin nümayişi idi.

Yürüş iştirakçıları arasında şəhid Xocalının şahid xocalılıları da az deyildi. "Ana harayı" abidəsinin ətrafında göz yaşı axıda-axıda doğmalarının daşa həkk edilən adlarını axtaranlardan biri də **Xalidə Hüseynova** idi. Bu şəhid bacısı siyahıda 3 doğmasının - atasının, anasının və qardaşının adlarını tapır. O anladır ki, hadisədən bir həftə sonra doğmalarının meyitlərini meşədən tapıblar: "Onları Bərdənin Yeni Həyat kəndində torpağa tapşırdıq. Mərhum Milli Qəhrəman Çingiz Mustafayevin ağlaya-ağlaya çəkib göstərdiyi cəsədlərin arasında idilər. Budur, baxın, Hüseyn, Həsən, Ziynət, Yunis, Rəşid, Sədaqət..."

O gecə iki qardaşından əli üzülən **Pərvanə Məmmədovanın** isə itkiləri yalnız bunlar olmayıb: "...Qaynatam başda olmaqla, nəslimizdən o gecə 15 nəfər itirmişik. Bu abidəni nə yaxşı ki, ucaldıblar. Dövlət başçısına, xocalıların bacısı qədər çox istədiyi Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarıq ki, şəhidlərimizin adını həmişə uca tutublar. Bu abidə də bizə bir təsəllidir, yoxsa hara ziyarətə gedə bilərdik? Xalqımız xocalıların dərdinə illərdir ki, şərik çıxır. İnanırıq ki, Xocalının qisası alınacaq, torpaqlarımız azad ediləcək. Xocalıda doğulmayan uşaqlar o yerlərdə yenidən qurub-yaradacaqlar. Xocalının başı əzəldən bəlalı olub: dolub-boşalıb".

**Solmaz İsmayılova** 63 nömrəli tam orta məktəbin müəllimidir. Xocalıda dünyaya göz açmış bu ana da 613 nəfərlik şəhid siyahısındakı adların arasından doğmalarını axtarıb tapır: Həmid və Tariyel Səmədov qardaşları. Solmaz xanım Həmid Səmədovun ömür-gün yoldaşıdır. Deyir ki, qaynı Tariyelin meyitini hadisə yerindən çıxara bilməyiblər. Həyat yoldaşını isə Ağcabədinin Təzəkənd kəndində dəfn ediblər...

Gözüyaşlı analardan biri də **Güləyə Orucovadır**. 16 yaşlı balasını - Cavan Canan oğlunu o gecə itirib. Dörd gün meşədə gizlənsələr də, sonradan onları əsir götürüblər. Gənc və yeniyetmə oğlanları onlardan ayırıb naməlum istiqamətə aparıblar ki, ölmüş ermənilərin məzarı üstündə başlarını kəssinlər. Həyat yoldaşı ilə birlikdə min bir məşəqqətlər yaşadığı əsirlikdən qurtarıb gəlsələr də, oğlundan hələ də bir soraq ala bilməməsi onu dağlayır...

Yürüş iştirakçıları arasında respublikamızın tanınmış ziyalıları da var idi.

**Teymur Kərimli,**
*AMEA-nın Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik:*

- Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti üzdədir. Dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səyi nəticəsində Xocalı soyqırımının dünyada tanıdılması və ona siyasi qiymət verilməsi istiqamətində böyük işlər görülür. Artıq dünyanın müxtəlif ölkələrində, diasporlarda, elm və təhsil müəssisələrində "Xocalıya ədalət!" şüarı altında tədbirlər keçirilir. Son 15 ildə bu tədbirlərin coğrafiyası genişlənib. Bu, bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı soyqırımı Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri olmaqla, Xatın, Liditsa, Qaradur, Srebrenitsa soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı hadisədir.

**Araz ƏHMƏDOV,**
*İnternat Məzunlarının Sosial İnteqrasiya Gənclər İctimai Birliyinin sədri:*

- Xocalı faciəsinin dünyada soyqırımı kimi tanınması üçün dünya azərbaycanlılarının da üzərinə çox böyük məsuliyyət düşür. Tarixin ən qəddarcasına törədilmiş kütləvi terror aktına qarşı səsimizi bir daha ucaltmalıyıq!

Xocalının qisasının alınması faciənin mahiyyətinin dünya ictimaiyyətinə olduğu kimi çatdırılmasından keçir. Düzdür, dövlət başçısı İlham Əliyevin, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın "Xocalıya ədalət" devizi artıq nəticəsini göstərməkdədir.

Xocalı, ümumiyyətlə, Qarabağ dərdləri bizi daha çox birləşdirir. Həmin birliyin bu gün şahidiyik. Bu, işğalçı Ermənistana və haqqa göz yuman, ikili standartlardan xilas olmayan bir sıra beynəlxalq birliklərə mesajdır: Biz Xocalıya dönəcəyik! Biz Qarabağımızın işğal altında qalmasına dözməyəcəyik. Buna hərbi, iqtisadi gücümüz və sıx birliyimiz də sübutdur!

Öz kiçik hekayə və nağılları ilə uşaqların sevimlisinə çevrilən **Gülzar İbrahimova** da ziyarətçilər arasında idi:

- Fəryadımızı ucaltdığımız günlərdən bizi az zaman ayırmır - 27 ildir! O zaman köməyimizə gələn olmadı! Heç olmasa bu gün dünya birliyi Xocalıya ədalət prizmasından yanaşmalı, Ermənistanın təcavüzkar siyasətinə cavab olaraq işğalçılara öz yerini göstərməlidir!

Azərbaycan dövlətinin apardığı siyasət nəticəsində bu haqsızlıq artıq dünya xalqlarının diqqətinə çatdırılır. Bu gün biz şəhid xocalılılara yas saxlamaqla yanaşı, onun fəryadlarını dünyaya bəyan edir və təcavüzkarı susdurmağa çağırırıq!

**Zeynəb Dərbəndli,**
*Dərbənddə yaşayan azərbaycanlı şairə:*

- Son illər faciənin ümumxalq mitinq-yürüş halında anılması vətəndən kənarda yaşayan azərbaycanlı kimi məndə belə bir inam yaradır ki, bu məsələdə artıq milli həmrəyliyə nail olmuşuq. Vətəndaşı olduğum Rusiyanın müxtəlif bölgələrində də Xocalı faciəsinin qurbanları anılır, məscidlərdə Qurandan ayələr oxunur, ehsanlar verilir. Bunu xalqımızın birliyi kimi dəyərləndirirəm. "Ana harayı" abidəsini ziyarət etməklə mən də öz milli vətənpərvərlik hisslərimi xalqımla paylaşır, xocalılıların dərdinə şərik çıxıram.

**Tamella Kərimova,**
*Bakı şəhəri Nərimanov rayonundakı 8 nömrəli poliklinikanın baş həkimi:*

- Xocalı faciəsi xalqımızın yaddaşından heç vaxt silinməyəcək. Bu yürüşdə Nərimanov rayonunun səhiyyə işçilərinin əksəriyyəti iştirak edir. Əminik ki, Azərbaycan Prezidentinin uzaqgörən siyasəti sayəsində Xocalıda öldürülən, itkin düşən, girov götürülən, şəhid olan hər bir azərbaycanlının intiqamı alınacaq. YAP-ın poliklinika üzrə ilk təşkilat katibi Rafael Bayramov, həkimlərdən Arzu Səfərova, Amil Eyvazov, Svetlana Nəcəfova, Firuz Nağıyev, Sevinc Həsənova, Elzamə Hacıyeva və digərləri bu yürüşdə iştirakı özlərinə vətəndaşlıq borcu hesab edirlər. Deyirlər ki, qoy bütün bəşəriyyət səsimizi eşitsin, Azərbaycan torpaqları işğaldan azad olmalıdır, ədalət zəfər çalmalıdır!

**Telman Musayev,**
*Bakı şəhəri, Nizami rayon sakini:*

- Xocalı faciəsi xalqımızın, insanlığın qan yaddaşına yazılmış ən dəhşətli hadisədir. Soyqırımı zamanı Ermənistan silahlı qüvvələrinin, sovet qoşun birləşməsinin 366-cı alayının iştirakı ilə milli mənsubiyyətinə görə yüzlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirdilər. Bu gün yaxın dostlarım Əli və Əlirza Abışovla birlikdə yürüşə qoşulmağı özümüzə borc bildik. Xocalı faciəsi millətimizin qan yaddaşıdır. Bu faciə heç vaxt unudulmayacaq.

**Nurəddin Adıgözəlov,**
*"Azərişıq" ASC-nin Sabunçu Rayon Enerji Təchizatı və Satışı İdarəsinin müdiri:*

- Baş idarədə, eləcə də cəmiyyətin rayon şöbələrində anım günləri keçirmişik. Bu gün kollektivimiz boyük ürək ağrısı ilə yürüşə qoşulub. Erməni vandalları nənələrimizin, babalarımızın, analarımızın, atalarımızın, körpələrimizin, qardaş-bacılarımızın başına müsibətlər açıblar. Belə haqsızlığı nə dünya birliyi, nə də tərəqqipərvər insanlar heç vaxt bağışlamamalıdır. Bu, bəşəriyyətə, insanlığa qarşı vəhşilikdir.Bu tarix heç zaman unudulmayacaq. Biz inanırıq ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində şəhid Xocalı və digər Qarabağ torpaqları işğaldan azad olunacaq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Lerikdə ümumrayon yürüşü keçirilib

Tarixin ən qanlı cinayətlərindən olan Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar Lerikdə də "Şəhidlər" abidə kompleksinə ümumrayon yürüşü və Xocalı şəhidlərinin xatirəsini anma mərasimi keçirildi. Yürüşdə rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov, hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların kollektivləri və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Şəhərin mərkəzindən, Bayraq meydanından "Şəhidlər" abidə kompleksinə doğru hərəkətə başlayan və minlərlə insanın iştirak etdiyi yürüşün məqsədi Xocalı faciəsi qurbanlarının xatirəsini ehtiramla yad etmək, erməni faşistləri tərəfindən insanlığa qarşı törədilmiş bu vəhşi cinayəti yenidən dünya ictimaiyyətinin diqqətinə çatdırmaq idi.

Yürüşdə yüzlərlə gənc əllərində qanlı qırğının günahsız qurbanlarının - xüsusi qəddarlıqla qətlə yetirilmiş uşaqların, qadınların və qocaların portretlərini, 27 il əvvəl törədilmiş hadisələrin dəhşətli səhnələrini əks etdirən fotoşəkillər, faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, bu soyqırımına beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar əks olunmuş plakatlar tutmuşdular.

Yürüş iştirakçıları "Şəhidlər" abidə kompleksinin önünə tər gül-çiçək dəstələri düzərək, şəhidlərin xatirəsini dərin hüznlə yad etdilər.

Anım mərasimində rayon icra hakimiyyəti başçısı aparatının şöbə müdiri Əlipənah Bayramov çıxış edərək bildirdi ki, tarixə nəzər saldıqda hələ XIX əsrin əvvəllərindən etibarən imperiyanın siyasi alətinə çevrilmiş ermənilərdən Qafqazda müsəlman amilinin güclənməsinə qarşı istifadə olunmağa başlanmışdır. XX əsrin ən qanlı hadisələrindən olan, erməni-sovet hərbi birləşmələri tərəfindən törədilmiş soyqırımı nəticəsində yeddi min nəfər sakini olan Xocalı şəhərinin bir gecədə yer üzündən silinməsi və əhalisinin kütləvi surətdə qətlə yetirilməsi planı qabaqcadan hazırlanmışdı.

Bütün bu olanları dünya ictimaiyyətinə çatdıran ümummilli lider Heydər Əliyev məhz ilk dəfə bu hadisəyə siyasi qiymət verdi. Azərbaycan Respublikasının Milli Məclisi bu məsələ ilə əlaqədar dəfələrlə xüsusi bəyanatlar və müraciətlər qəbul etmiş, 1994-cü il 24 fevral tarixli 791 nömrəli qərarı ilə 26 fevral Xocalı Soyqırımı Günü elan olunmuş və bu barədə beynəlxalq təşkilatlara məlumat verilmişdir.

Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində dövlətimiz, Heydər Əliyev Fondu və dünyada fəaliyyət göstərən diaspor təşkilatları tərəfindən ardıcıl iş aparılır, dünyanın, demək olar ki, əksər dövlətlərində hər il müxtəlif tədbirlər keçirilir. Xocalı qətliamını olduğu kimi, faktlarla dünya ictimaiyyətinə çatdırmaq məqsədilə filmlər, fotosərgilər nümayiş etdirilir.

Daha sonra Lerik şəhər 1 saylı texniki fənlər təmayüllü liseyin şagirdlərinin ifasında faciə qurbanlarının xatirəsinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

***"Azərbaycan"***

# Prezident qayğısının növbəti təzahürü

## Sosial sahədə atılan addımlar böyük sosial paketin tərkib hissəsidir

*Əvvəli 1-ci səh.*

Yanvar və fevral aylarında qəbul edilən müvafiq qərarlar, məsələn, respublikamızın ərazi bütövlüyünün, konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair atılan addımlar, şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləğinin 58 manat artırılaraq 300 manat müəyyən edilməsi, minimum əməkhaqqının məbləğinin 50 manat artırılaraq 180 manata çatdırılması, əmək pensiyaların minimum məbləğinin 38 faiz artırılaraq 116 manatdan 160 manata çatdırılması, təqribən 100 minə yaxın tələbənin təqaüdünün artırılması, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata qaldırılması, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayının 16 min vahid artırılması ölkədə həyata keçirilən təkmil və ardıcıl sosial siyasətin ayrı-ayrı nümunələridir.

### Minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq

Xatırladaq ki, minimum əmək pensiyaların artırılması 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq. 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq. Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38,5 faiz civarında artacaq. Minimum əməkhaqqının məbləğinin artırılması isə 600 min insanı əhatə edir.

Prezident son müşavirədə minimum əməkhaqlarının və pensiyaların ardıcıl olaraq artırılacağını bəyan etdi. Bununla bağlı danışan Prezident dedi: "Ancaq o da həqiqətdir ki, bu rəqəm bizi heç də razı sala bilməz. Ona görə müvafiq göstərişlər verildi ki, minimum əməkhaqqının gələcək artımı ilə bağlı təkliflər hazırlansın. İndi bunun maliyyə yükünü, əlbəttə ki, biz qiymətləndirməliyik. Əlbəttə ki, gələcəkdə minimum əməkhaqları və pensiyalar ardıcıl olaraq artırılacaq".

Xatırladaq ki, bu gün minimum pensiyanın səviyyəsinə görə Azərbaycan MDB məkanında ikinci yerdədir. Lakin göründüyü kimi, cənab Prezident bunu da yetərli hesab etmir və həm pensiyaların, həm də əməkhaqlarının artırılması gündəlikdə duran əsas məsələlər sırasında yer alır.

### Problemli kreditlərə son

Prezidentin müşavirədə toxunduğu ən mühüm məsələlərdən biri problemli kreditlər barədə idi. Bir neçə il əvvəl maliyyə bazarlarında baş vermiş məlum hadisələrdən sonra dollar hesabı ilə banklardan götürülən kreditlərin ödənməsində çətinliklər yarandı. Budur, İlham Əliyevin vətəndaş maraqlarına xidmət edən mütərəqqi sosial siyasəti bu məsələdə də vətəndaşın imdadına çatır. Müşavirədə Prezidentin qeyd etdiyi kimi, artıq hökumət üzvlərinə müvafiq göstərişlər verilib, keçən ildən başlayaraq çox fəal iş aparılır, təkliflər paketi hazırlanır. Əlbəttə ki, Prezidentdən gələn bu sosial təşəbbüs banklardan kredit götürən vətəndaşların nigarançılığına və narahatlığına birdəfəlik son qoyacaq. Azərbaycan problemli kreditlər məsələsini həll etməklə yaxşı bir nümunə göstərəcək.

Dövlət siyasətinin mərkəzində vətəndaş maraqlarının dayandığını göstərən başqa bir addım isə çoxmənzilli binaların sənədləşməsində ortaya qoyulan iradədir. Prezidentin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" fərmanına əsasən istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək, həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək üçün həmin binaların sənədləşməsi yoluna qoyulacaq. Bir sözlə, müvafiq fərman bu problemə də son qoyacaq. Təxminən 400 çoxmənzilli binanın sənədləşməsi təmin olunacaq.

### Sosial müavinətlər artırılır

Minimum əməkhaqqının, minimum pensiyanın, tələbələrin təqaüdlərinin artırılması və digər ödənişlərin verilməsinin böyük sosial paketin tərkib hissəsi olduğunu deyən Prezident İlham Əliyev müşavirədə sosial müavinətlərin çox əhəmiyyətli dərəcədə artırılacağını bəyan etdi. Elə həmin gün dövlət başçısının imzaladığı "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamı əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti mühüm addım kimi tarixə düşdü. Bu sərəncam dövlət başçısının daha bir humanist təşəbbüsünün nəticəsi olmaqla əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm tədbirlərin ardıcıl xarakter aldığını göstərir.

Sərəncam ümumilikdə, 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılması, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsi məqsədinə xidmət edir.

Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə 150 manata, II qrup əlilliyə görə 130 manata, III qrup əlilliyə görə isə 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur.

Həmçinin sosial müavinətin məbləği valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları üçün 61 manatdan 100 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün 68 manatdan 100 manata, beşdən çox uşağı olan qadınların hər uşağı üçün 33 manatdan 55 manata, uşağın anadan olmasına görə 109 manatdan 200 manata, dəfn üçün ödənilən sosial müavinətin məbləği isə 146 manatdan 300 manata çatdırılacaq.

### Prezident təqaüdü ilə təmin edilənlərin əhatə dairəsi genişlənir

Sərəncam eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin təqaüdü ilə təmin edilənlərin əhatə dairəsinin genişlənməsinə əsas yaradıb. Belə ki, sərəncamda I qrup əlillərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərə qulluq üçün əmək pensiyasının sığorta hissəsinə əlavə əvəzinə I qrup əlilliyi olan şəxslərə qulluq edənlərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edənlərə 50 manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi də yer alıb.

Dövlət başçısının yeni sərəncamı ilə müharibə əlillərinə də Prezident təqaüdünün məbləğinin I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılması təmin ediləcək.

### Hər bir işin arxasında vətəndaş amili dayanır

2019-cu il başlayandan sosial sahədə atılan addımlar həyata keçirilən böyük sosial paketin tərkib hissəsidir. Bu barədə Prezident İlham Əliyev əvvəllər də fikirlərini bildirib, əhalinin sosial müdafiəsinə xidmət edən tədbirlərin həyata keçiriləcəyini diqqətə çatdırıb. Və yanvarın sonlarından etibarən Prezidentin qeyd etdiyi məsələlər həyata vəsiqə alır, reallığa çevrilərək ölkə vətəndaşlarının sosial rifahına xidmət edir.

Bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Azərbaycan hakimiyyətinin yürütdüyü sosial siyasət həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının təzahürüdür. Görülən bütün işlərin arxasında Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəldilməsi, onun rifahının daha da yaxşılaşdırılması amili dayanır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# BMT-nin İnsan Hüquqları Şurasının sessiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü məsələsi qaldırılıb

Azərbaycan bütün dünyada insan hüquqlarının təşviqi və qorunması üçün çoxtərəfli institutların vacibliyinə inanır. Bu səbəbdən Azərbaycan əməkdaşlıq və həqiqi dialoq vasitəsilə bütün insan hüquqlarının təşviq edilməsinə və qorunmasına cavabdeh olan BMT-nin İnsan Hüquqları Şurasına əhəmiyyət verir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov BMT-nin İnsan Hüquqları Şurasının 40-cı sessiyasında çıxış edərkən deyib.

Nazir bildirib ki, Azərbaycan Şurada müşahidəçi olaraq onun işinə fəal şəkildə töhfə verir. Şuranın 37-ci sessiyasında Azərbaycan Gürcüstan, Keniya, Tailand və Türkiyə ilə birlikdə Şura tərəfindən yekdilliklə qəbul edilmiş şəffaf, hesabatlı və səmərəli ictimai xidmətlərin təqdim edilməsi yolu ilə dayanıqlı inkişaf məqsədlərinin və insan hüquqlarının təşviqi ilə bağlı 92 dövlətin həmmüəllif olduğu qətnamə layihəsini irəli sürdü. Bu il insan hüquqları üzrə ali komissarın ofisi ilə birlikdə Azərbaycan yuxarıda qeyd olunan qətnamədə təşviq edilən ictimai xidmətlərin səmərəli modellərinə malik ölkələrin digər üzv dövlətlərlə ən yaxşı təcrübələrini bölüşə biləcəyi növbəti beynəlxalq konfransa evsahibliyi edəcək. Azərbaycan 2018-ci ilin mart ayında qəbul edilmiş insan hüquqlarının qorunması və təşviqi və dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyinin icrası ilə bağlı İnsan Hüquqları Şurasının 37/24 saylı qətnaməsinin özək qrupu arasında olub. Şuranın 38-ci sessiyası zamanı insan hüquqları üzrə ali komissarın rolunun artırılması ilə bağlı ölkəmiz tərəfindən irəli sürülmüş birgə bəyanat 125 üzv dövlətin dəstəyini qazanıb.

Azərbaycan hökuməti bütün insan hüquqlarından və fundamental azadlıqlardan vətəndaşlarımızın tam yararlanmasını təmin etmək üçün genişmiqyaslı proqramların həyata keçirilməsini davam etdirir. Bu xüsusda ədliyyə sisteminin fəaliyyətinin daha da təkmilləşdirilməsi üçün əlavə qanunverici və struktur tədbirlərinə hədəfləmiş 2019-2023-cü illərdə ədliyyənin inkişafı ilə bağlı Dövlət Proqramının bu yaxınlarda qəbul edilməsini vurğulamaq yerinə düşər.

Nazir deyib ki, Azərbaycan iqtisadi, mülki, mədəni, siyasi, sosial hüquqlar və inkişaf hüququ da daxil olmaqla bütün insan hüquqlarını əhatə edən dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyinin icrasına tam sadiqdir. Azərbaycan bu ilin sonunda dayanıqlı inkişaf məqsədlərinin icrası ilə bağlı ikinci könüllü milli hesabatını təqdim edəcək. Ölkəmiz sosial təhlükəsizlik sistemini daha da inkişaf etdirdiyindən bu hesabat fiziki qabiliyyəti məhdud olan insanlar da daxil olmaqla bütün həssas qrupların hüquqlarına xüsusi əhəmiyyəti əks etdirəcək. Bu kontekstdə biz BMT Baş katibinin BMT-nin işinin bütün istiqamətlərinə əlilliyin daxil edilməsi üzrə sistem boyu fəaliyyət planının təşviq edilməsi qərarını alqışlayırıq.

E.Məmmədyarov vurğulayıb ki, Ermənistan ilə Azərbaycan arasında davam edən silahlı münaqişə beynəlxalq və regional sülhə, təhlükəsizliyə, insan hüquqlarına, inkişafa hələ də əsas təhdid olaraq qalmaqdadır. Bu gün Azərbaycan bu münaqişənin qəddar səhifələrindən birinin - 106-sı qadın, 63-ü uşaq və 70-i yaşlı olmaqla ölkəmizin Dağlıq Qarabağ bölgəsinin kiçik şəhərinin 613 sakininin 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən qətlə yetirildiyi, Ermənistan tərəfindən törədilən Xocalı soyqırımının 27-ci ildönümünü qeyd edir. Qonşu Ermənistanın silahlı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal altındadır. Etnik təmizləməyə məruz qalmış bir milyondan çox azərbaycanlı öz doğma yurd-yuvalarından zorla didərgin salınaraq məcburi köçkün vəziyyətində qalmaqdadır və bu, 10 milyon əhalisi olan bir ölkədə, adambaşı hesablamalara görə, dünyada ən çox məcburi köçkün və qaçqının olduğu bir ölkədir. Ermənistan Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləyən və erməni silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını qəti şəkildə tələb edən BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri və bir çox digər beynəlxalq təşkilatların müvafiq sənədlərinə məhəl qoymayaraq Azərbaycan ərazilərinin işğalını davam etdirir.

"Məhz bu kontekstdə mən BMT İnsan Hüquqları Şurasını, onun mandat sahiblərini və BMT-nin insan hüquqları üzrə ali komissarını 20 ildən çoxdur ki, hüquqları pozulan azərbaycanlı məcburi köçkün və qaçqınların insan hüquqlarının bərpası və ədalətin aliliyinin təmin edilməsi üçün səmərəli tədbirlər və prinsipial mövqe nümayiş etdirməyə çağırıram", - deyə nazir bildirib.

# Soyqırımı qurbanlarının xatirəsi Dövlət Sərhəd Xidmətinin hərbi hissə və bölmələrində anılıb






Dövlət Sərhəd Xidmətinin (DSX) bütün hərbi hissə və bölmələrində Azərbaycan xalqının tarixinə ən qanlı faciələrdən biri kimi daxil olmuş Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilib.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, DSX-nin Aparatında, Sahil Mühafizəsində keçirilən tədbirlərdə və Azərbaycan İstiqlal Muzeyində, Respublika Hərbi Prokurorluğunun Memorial Soyqırımı muzeyində DSX hərbi qulluqçularının ekskursiyaları zamanı çıxış edənlər XX əsrin sonlarından başlayaraq erməni millətçiləri tərəfindən xalqımıza qarşı məqsədyönlü şəkildə aparılan etnik təmizləmə və təcavüzkarlıq siyasətinin davamı olaraq Xocalıda törətdikləri soyqırımı aktını bütün insanlığa və bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayət kimi dəyərləndiriblər. Bu qanlı hadisə zamanı 613 nəfərin, o cümlədən 106 qadının, 63 uşağın, 70 qocanın xüsusi qəddarlıqla qətlə yetirilməsi, 8 ailənin tamamilə məhv edilməsi, 1275 nəfərin isə əsir və girov götürülməsinin bəşəriyyət tarixində silinməz qanlı səhifə kimi qalacağı xüsusi vurğulanıb.

Qanlı təcavüzə dövlət səviyyəsində əsl siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı ilk təşəbbüsün ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülməsi, soyqırımı qurbanlarının adlarının əbədiləşdirilməsi, fevralın 26-sının "Xocalı soyqırımı günü" elan edilməsi və bununla bağlı bir sıra fərman və sərəncamların imzalanması qeyd olunub.

Soyqırımı hadisəsinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin apardığı məqsədyönlü siyasətin uğurlu nəticələr verməsi, Azərbaycan xalqına qarşı törədilmiş bu hərbi cinayətin beynəlxalq müstəviyə çıxarılmasının dövlət siyasətinin mühüm istiqamətini təşkil etməsi, soyqırımı nəticəsində həlak olanların xatirəsinə böyük ehtiramın göstərilməsi və şəhidlərin ailə üzvlərinə dövlət qayğısının daha da artırılması məqsədilə görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat verilib.

İştirakçılar Heydər Əliyev Fondunun vitse-prezidenti, İslam Konfransı Gənclər Fondunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə faciənin dəhşətli faktlarının və erməni millətçilərinin əsl simalarının geniş beynəlxalq ictimaiyyətə çatdırılmasıda "Xocalıya ədalət!" beynəlxalq təbliğat kampaniyasının bu istiqamətdə aparılan mühüm işlərdən biri olmasını dəyərləndiriblər.

Tədbirlərdə Xocalı soyqırımına həsr olunmuş sənədli filmlər nümayiş etdirilib.

***"Azərbaycan"***

# Lənkəranda Xocalı soyqırımının 27-ci ildönümü qeyd olunub

Lənkəran şəhərində də Azərbaycanlıların soyqırımı qurbanları xatirə parkındakı "Ana heykəli" qarşısında Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının məsul işçiləri, rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, rayon ictimaiyyətinin nümayəndələri, tələbə-gənclər, hərbi hissələrin şəxsi heyətləri abidə-kompleksin önünə gül-çiçək dəstələri düzərək faciə qurbanlarının xatirəsini dərin hüznlə yad ediblər.

Rayonun idarə və təşkilatlarında, Heydər Əliyev Mərkəzində, Lənkəran Dövlət Universitetində, orta ixtisas və ümumtəhsil məktəblərində, mədəniyyət ocaqlarında Xocalı soyqırımına həsr edilmiş dərslər, anım tədbirləri, xatirə gecələri, rəsm və kitab sərgiləri təşkil edilib, faciə qurbanlarının xatirəsi ehtiramla yad olunub.

***"Azərbaycan"***

## Sumqayıt hadisələrindən 31 il ötür

# Erməni təxribatının silinməyən izləri

Düz 31 il əvvəl - 1988-ci il fevral ayının 27-28-də Sumqayıtda erməni millətçiləri xaricdə yaşayan havadarlarının köməyi ilə qanlı aksiya törətdilər. İllər ötsə də, faktlar, rəqəmlər hər şeyi tarixin yaddaşında saxlayır.

Separatçı, millətçi, terrorçu ermənipərəst qüvvələr Sumqayıtda tüğyan edən iğtişaşlar zamanı müxtəlif millətlərdən olan 32 adam, o cümlədən 26 erməni həlak olmuş, 400-dən çox insan bədən xəsarəti almış, 50-dən artıq mədəni-məişət obyekti dağıdılmış, 40-dan çox avtomobil sındırılmış, şəhərə təxminən 10 milyon dolları məbləğində ziyan dəymişdir.

Erməni millətçiləri tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqına qarşı çoxsaylı xəyanətlər etmiş, ölkəmizə qarşı əsassız ərazi iddiaları qaldırmış, "Böyük Ermənistan" xülyasına çatmaq üçün hər cür hiylələrə, təxribatlata əl atmışlar. Sovet imperiyasının iflasa uğradığı ərəfədə də ermənilər məkrli planlarını davam etdirmişlər. Sumqayıt hadisələri zamanı iyrənc niyyətlərini yerinə yetirmək istəyən hər cür hiyləyə əl atmışdılar. Ermənilər Sumqayıtı təsadüfi hədəf seçməmişdilər. Həmin ərəfədə minlərlə soydaşımız Ermənistandan - öz ata-baba yurdundan qaçqın düşmüşdü. Həmin dövrdə onların çoxu Sumqayıta pənah gətirmişdilər. Hadisələrin gedişi sübut edir ki, bu təxribatlar əvvəlcədən planlaşdırılmışdı. Fevral ayının 27-də hadisələrə birbaşa start verilmişdi. Mart ayının 1-də isə şəhərdə komendant saatı elan olunmuşdu. Sovet qoşunları isə hələ də gözləmə mövqeyi tuturdular. Bütün tapşırıqlar birbaşa Moskvadan verilirdi. Heç də təsadüfi deyil ki, 1988-ci il iyul ayının 18-də SSRİ Ali Sovetinin iclasında Mixail Qorbaçov demişdi ki, "qoşunlar Sumqayıta bir saat gecikmişdi". Amma SSRİ müdafiə naziri Yazov "Sumqayıtın əks sədası" sənədli filminin çəkiliş qrupuna verdiyi müsahibəsində bu fikri təkzib etmişdir. Filmin ssenari müəlliflərindən biri, jurnalist Eyruz Məmmədov yazır ki, "Yazov tam ciddiliyi ilə bizə bildirdi ki, sovet qoşunları heç vaxt heç bir yerə gecikmir. Baş komandanın əmri olmadan komendant saatı elan oluna bilməz, nə də əsgərlər silah işlətmək, güllə atmaq belə fikrində ola bilməz".

Sumqayıtın təxribatlar üçün məkan seçilməsi öncədən müəyyənləşdirilmişdi. Bu hadisələrin əsas təşkilatçısı isə Eduard Qriqoryan adlı bir tüfeyli seçilmişdi. O, "Kruq" cəmiyyətinin fəal üzvü, dəfələrlə məhkum olunmuş quldur idi. Heç yerdə işləmirdi, "Paşa" ləqəbi ilə tanınırdı. Hadisələr zamanı öz ətrafına müəyyən insanlar toplamış, onları pulla şirnikdirmiş, qanlı cinayətlərə, terrora cəlb etmişdir. Həmin gün Sumqayıtda iğtişaşlar onun təşəbbüsü ilə başladı... Şəhərdə qanlı hadisələr başlayanda o qədər yalanlar, uydurmalar, şayiələr yayılmışdı ki... Hələ 1988-ci il 30 mart tarixli sayında "İzvestiya" qəzeti belə bir sərlövhə ilə yazı dərc etmişdi: "Sumqayıt: istintaqa şayiələr mane olur..." O vaxt SSRİ Baş Prokurorluğunun istintaq qrupu bu işə cəlb olunsa da, hər cür yalan və şayiələr, uydurmalar istintaqın gedişinə mane olurdu. Sumqayıt hadisələrində həlak olanların sayını dəfələrlə



artırırdılar. Hətta uydurmalara görə, guya Sumqayıtda min nəfərə qədər adam öldürülmüşdür. Yenə də ermənilər köhnə vərdişlərindən əl çəkmir, həqiqəti boğmağa çalışırdılar. Sumqayıtda törədilən qanlı cinayətlərlə bağlı SSRİ Baş Prokurorluğunun istintaq qrupunun rəhbəri Qalkin yazırdı ki: "Eduard Qriqoryan tüfeyli həyat sürən bir canidir. Sumqayıtda baş verən hadisələrdə onun cinayət əməlləri nəticəsində 5 erməni qətlə yetirilib, 8 qadın zorlanmışdır..."

Belə silsilə cinayətlərə havadarlıq edənlər onu dəfələrlə həbsxanadan azad etdirmişdilər. Ona görə ki, "Paşa" ləqəbli bu cinayətkar ermənilərin hər cür təxribatlarını həyata keçirməyə hazır idi. Bir faktı qeyd edək ki, Sumqayıt hadisələrindən cəmi bir gün sonra Serqo Xanzadyan, Zori Balayan və Silva Kaputikyan Qorbaçovla görüşür və həmin görüşün nəticəsi olaraq dərhal Sumqayıta ordu yeridilir. Elə həmin gündən şəhərdə komendant saatı başlayır. Əlbəttə, hadisələr baş verməmişdən əvvəl əgər Qorbaçov ədalətli mövqe tutub prinsipiallıq göstərsə idi, hadisələr bu həddə çatmazdı. Amma o bunu etmədi. Hadisələr zamanı "xilaskar" sovet ordusunun vəhşilikləri ilə üzləşən adamların sayı çox olub.

1988-ci il mart ayının əvvəllərində hadisələr bir qədər səngisə də, bir-birini tamamlayan şayiələr, uydurmalar daha geniş çərçivədə yayılırdı. Komendant saatından sonra cəmi iki gün ərzində iki minə yaxın adam həbs olunmuşdur. Qəribə burasıdır ki, ən qısa müddətdə dünyanın ucqarlarından erməni jurnalistləri Sumqayıtda peyda olmuş və hadisələrin təbliğinə çalışmışdılar. Jurnalist Eyruz Məmmədov yazır ki, İsveçrədən Artaşes Qabrilyan adlı birisi videokamerası ilə həmin günlərdə Sumqayıtın küçələrini sərbəst gəzib dolaşırdı. "Azadlıq" radiosunun erməni redaksiyası bu hadisələrlə bağlı ciddi əks-təbliğata başlamışdır. Erməni tarixçiləri də silsilə saxta kitablar dərc etdirib yayırdılar. Sumqayıt hadisələrini araşdıran analitiklər, jurnalistlər bu qənaətə gəlmişdilər ki, iğtişaşların, törədilən cinayətlərin ssenarisi birbaşa Moskvada hazırlanmışdır. Həmin dövrdə "Krunk" erməni təşkilatının üzvlərindən bir qrupu Sumqayıtda yaşayırdı. Onlar ermənilərlə sıx əlaqə saxlayır, hadisələri hansı ardıcıllıqla davam etdirmək üçün təlimatlar alırdılar. Onu da qeyd edək ki, Sumqayıtda yaşayan ermənilərin yaşayış tərzi o qədər də aşağı səviyyədə deyildi. Hadisələrdən sonra Ermənistana köçənlər orada uzun müddət yaşaya bilmədilər. Bir qrupu Rusiyanın müxtəlif şəhərlərinə üz tutdu, digərləri isə Ermənistanda məskunlaşmağa can atdılar. Ermənilər özləri də sonradan etiraf etməli oldular ki, üz tutduqları yerlərdə onlara münasibət o qədər də yaxşı olmayıb. Həmin illərdə ölkəmizdə tolerantlıq o qədər güclü idi ki, hətta orta məktəblərdə də erməni dili tədris olunurdu. O vaxtlar işlədiyim Azərbaycan televiziyasında ayrıca erməni redaksiyası fəaliyyət göstərirdi. Həmin redaksiyada cəmi bir azərbaycanlı işləyirdi. Bütün bunlar sübut edir ki, milli münasibətlər zəminində ciddi problemlər yox idi. Amma erməni millətçiləri bu iğtişaşları törətmək üçün hər cür saxta və iyrənc yollara əl atırdılar...

Həmin illərdə Sumqayıtda gənclər çox idi. Onlar müxtəlif bölgələrdən gəlmişdilər. Gələnlər burada işə düzəlir, yataqxanada yerləşirdilər. Müxtəlif millətlərin yaşadığı bu şəhərdə gəncləri münaqişəyə daha tez cəlb etmək mümkün idi. Ermənilər bu vəziyyətdən qədərincə faydalanır, öz çirkin niyyətlərini həyata keçirirdilər.

Sumqayıtda baş verə biləcək hadisələr barədə ermənilərə əvvəlcədən xəbərdarlıq edilmişdi. Burada yaşayan 1000-ə qədər erməni 1988-ci ilin yanvar ayında əmanət kassalarında saxladıqları 8 milyon 343 min 691 rubl pulu təcili çıxarıb Yerevana, Xankəndiyə və Rusiyanın başqa şəhərlərinə köçürmüşdülər. Bütün bunlar bir daha sübut edir ki, təxribatçılar bu iğtişaşlara əvvəlcədən hazırlanmışdı, onlar planlı şəkildə hərəkət etmişdilər.

Sumqayıtın sənaye müəssisələrində, təhsil, mədəniyyət və səhiyyə sahələrində çalışan ermənilər Dağlıq Qarabağın Ermənistana verilməsi barədə gizli imzalar toplayırdılar. O vaxt onlar "Krunk" cəmiyyətinə yardım adı altında adambaşına 50 rubl vəsait göndərirdilər. Bütün bunlar ermənilərin məqsədlərinə çatmaq üçün apardıqları açıq və gizli işin tərkib hissəsi idi.

